**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**RÖVŞƏN ULDUZ OĞLU MƏMMƏDLİ**

# AZƏRBAYCAN SSR-DƏ MƏDƏNİYYƏTİN İNKİŞAFI (XX ƏSRIN 70-80-CI ILLƏRI)

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2013**

*Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın müasir tarixi» şöbəsində yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**
**Tarix elmləri doktoru, professor,**
**Əməkdar elm xadimi,**
**Dövlət mükafatı laureatı T.H.Musayeva**

**Rəsmi opponentlər:**
**tarix üzrə elmlər doktoru Ə.Q.Qasımov**
**tarix üzrə fəlsəfə doktoru E.V. Vəliyev**

**Aparıcı təşkilat: Bakı Dövlət Universitetinin «Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası»**

**Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdindəki tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının «_30__» _10____ 2013-cü il tarixli islasında saat «__»da olacaqdır.**

**Ünvan: Bakı şəhəri 1143, H.Cavid prospekti, 31.**

**Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Elmi Arxivində tanış olmaq olar.**

**Avtoreferat «___ » ________ 2013-cü ildə göndərilmişdir.**

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə fəlsəfə doktoru C.Ə.Bəhramov**

## I. Dissertasiyanın ümumi səciyyəsi

**Mövzunun aktuallığı.** İnsanın mənəvi aləminin formalaşmasında, onun daha da zənginləşməsində mədəni irsin xüsusi rolu vardır. Mədəni irs xalqın mövcudluğunu, xüsusiyyətini qoruyur, onu digər xalqlardan fərqləndirici rol oynayır. Bu səbəbdən mədəni quruculuq tarixinin öyrənilməsini cəmiyyətdə baş verən proseslərdən ayırmaq olmaz. Çünki, mədəni sahədə həyata keçirilən siyasət mənəvi həyatın bütün sahələrini əhatə edir, xalqın gələcək inkişafına, onun mədəni irsinin və mənəvi dəyərlərinin qorunmasına təsir edir.

Azərbaycan tarixində XX əsrin 70-80-ci illəri çox mühüm dövr olduğundan dissertasiya işində bu zaman kəsiyinin araşdırılması olduqca aktualdır. Bu müddət ərzində respublikada sosial-iqtisadi, mədəni inkişaf sahəsində elə nailiyyət və müvəffəqiyyətlər qazanılmışdır ki, həmin dövr Azərbaycanın XX əsr tarixində xüsusi yer tutur. Həyata keçirilən tədbirlər respublikanın əhalisinin bütün kütlələrinin ümumi mədəni səviyyəsinin yüksəlməsinə, mənəvi tələblərinin daha dolğun ödənilməsinə, şəhərlə kənd arasındakı mühüm mədəni fərqlərin silinməsi prosesinin sürətlənməsinə səbəb olmuşdu. Milli mədəniyyətin inkişafında keyfiyyət etibarı ilə yeni bir mərhələ başlamışdır. Bu səbəbdən xalqımızın əldə etdiyi mədəni quruculuq təcrübəsini araşdırmaq, obyektiv şəkildə işıqlandırmaq tarix elminin aktual vəzifələrindən biridir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ideoloji ehkamlardan uzaq, ümumbəşəri dəyərlərə istiqamətlənmiş milli mədəniyyətimizin hərtərəfli inkişafı üçün geniş imkanlar açılmışdır. Hazırda xalqın mədəni-mənəvi potensialının güclənməsi, dövlətin sosial-mədəni siyasəti keçən əsrin 70-80-ci illərində əldə olunmuş zəngin təcrübənin nəticəsidir. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü haqqında Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin Sərəncamında deyildiyi kimi: "Hələ ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın böyük oğlu Heydər Əliyevin strategiyasına uyğun respublikamızda həyata keçirilən genişmiqyaslı proqramlar müasir iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək gələcək müstəqilliyimizin təmin olunması üçün zəmin hazırlamışdı".[1] Bu baxımdan da mədəniyyətin inкişafı tarixini öyrənmək və araşdırmaq böyük elmi əhəmiyyət kəsb edir.

XX əsrin 70-80-ci illərində Azərbaycan SSR-də, bədii-ədəbi mədəniyyət xeyli zənginləşmiş, onun dünya miqyasında tanıdıl-

---

[1] «Azərbaycan» qəzeti, 25 yanvar 2011-ci il.

masında mütərəqi addımlar atılmışdır. Tədqiq edilən illərdə Azərbaycan SSR-də ümumtəhsil məktəblərinin inkişafı və ümumi icbari orta təhsilə keçidin tamamlanması sahəsində böyük uğurlar qazanılmışdır. Həyata keçirilən ali təhsil siyasəti isə ali məktəblərin şəbəkəsinin çoxalması və o, cümlədən SSRİ-nin müxtəlif ali təhsil ocaqlarında təhsil almağa göndərilənlərin sayının artması Azərbaycanda ziyalıların sayını artırdı. Həmçinin elm müəssisələrinin və onlarda məşğul olan əməkdaşların sayı çoxalmış, vacib elmi nəticələr əldə olunmuşdur. Mədəni-maarif müəssisələrinin şəbəkəsi genişlənmiş, respublikanın bütün ərazisini əhatə etmişdir. 70-80-ci illərdə Azərbaycan ədəbiyyatında geniş oxucu kütləsi qazanan nadir nümunələr yaradılmışdır. Milli-mənəvi dəyərləri əks etdirən bu sənət əsərləri xalqın milli oyanışında müstəsna rol oynamışdır. Bütün bunlar tədqiq etdiyimiz mövzunun aktuallığını bir daha göstərir.

80-ci illərin sonu - 90-cı illərin əvvəlində müstəqillik uğrunda mübarizənin yüksəlişi, 70-80-ci illərdə əldə edilmiş iqtisadi canlanma, mədəni quruculuq və milli mübarizlik ruhunun təşəkkülü nəticəsində mümkün olmuşdur. Bu səbəbdən böyük ehtiyac hiss olunan problemlərdən biri də respublikanın mədəni həyatının və bu həyatda baş verən dəyişikliklərin yenidən elmi cəhətdən araşdırılıb öyrənilməsidir.

Seçilmiş mövzunun aktuallığı bir də onunla izah edilir ki, Azərbaycan SSR-də mədəniyyət sahəsində milli xüsusiyyətlər nəzərə alınmadan inzibati-amirlik üsulları ilə həll edilən məsələlər xalqın mədəni, mənəvi inkişafına mənfi təsir göstərmişdir. Mədəni sahədə əldə olunmuş uğurlarla yanaşı milli mədəniyyətimizin özünəməxsusluğunun və rəngarəngliyinin qorunub saxlanmasında ciddi səhvlərə və əyriliklərə yol verilmişdir. Bu baxımdan XX əsrin 70-80-ci illəri Azərbaycan SSR tarixinin mürəkkəb və təzadlı dövrlərindən biridir. Bu səbəbdən мədəni quruculuğun öyrənilməsi ümumi Azərbaycan tarixinin ən ümdə problemi kimi qarşıda durur.

Göstərilən məsələlərin bu xronoloji çərçivədə geniş araşdırılmasına ehtiyac vardır. Bu səbəbdən müasir dövrdə mədəniyyətə, elmə, təhsilə verilən əhəmiyyət, mədəniyyətşünaslığa marağın daha da artması mövzunun aktuallığını artırır. Bu illər ərzində mədəni quruculuqda əldə edilmiş müsbət təcrübəni təhlil etmək, ümumiləşdirmək, ondan istifadə olunması müstəqil Azərbaycanın yeni mədəni quruculuğunda aktuallıq kəsb edir. Bütün bu göstərilənlər mövzunun elmi tədqiqat obyekti kimi seçilməsinə səbəb olmuşdur.

**Tədqiqatın xronoloji çərçivəsi.** XX əsrin 70-80-ci illəri Azərbaycan tarixində çox önəmli yer tutur. 1969-cu ildə Heydər

Əliyevin rəhbərliyə gəlməsi ilə respublikanın həyatında yeni dövr başlayır. Məhz bu illərdə respublikanın inkişafinda o, cümlədən mədəniyyətin əsas sahələrində – təhsil, elm, mədəni-maarif işi, ədəbiyyat və incəsənətdə mühüm nailiyyətlər əldə olunmuşdur. Azərbaycan SSR 70-80-ci illərdə İttifaqın aparıcı mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. Tədqiq olunan bu illər sovet dövlətinin son iyirmi ilini əhatə edir. Ona görə də dissertasiya işi 1991-ci ildə SSRİ-nin dağılması müstəqil Azərbaycan Respublikasının qurulması ilə qurtarır. Dissertasiyanın xronoloji çərçivəsinin XX əsrin 70-80-ci illərinin seçilməsində yuxarıda sadalanan prinsiplər əsas götürülmüşdür.

**Mövzunun öyrənilmə səviyyəsi.** Araşdırılan dövrün mədəni quruculuğunun tarixinin öyrənilməsi tədqiqatçılar tərəfindən böyük marağa səbəb olmuşdur. Mədəni həyatda baş verən dəyişikliklər və yeniliklərin öyrənilməsinə xeyli sayda tədqiqatlar həsr edilmişdir. Bu əsərlərdə 70-ci illər və 80-ci illərin I yarısında baş verən mədəni inkişafın nəticələri təhlil edilmişdir. Lakin onların çoxunun bir nöqsanı var ki, mövcud ideoloji konsepsiya çərçivəsində yazılmışdır. Bu tədqiqat işləri zəngin mənbəşünaslıq bazasına malik olsada, onların izahı bir tərəfli şəkildə verilirdi. Müəlliflər daha çox partiya və partiya təşkilatlarının bu sahədə fəaliyyətinə, qərarlarına, statistik məlumatların və ölkə rəhbərliyinin sitatlarının gətirilməsinə üstünlük verirdilər. Mədəniyyətin maddi bazası düzgün təsvir edilmirdi.

Beləliklə mövcud nöqsanların üzərindən sükutla keçirdilər. Bu əsərlərdə əsasən mədəni inkişafa partiyanın ideoloji bir hissəsi kimi yanaşılmışdır. Səhv və nöqsanların yalnız partiyanın qərar və məqsədlərinin yerlərdə düzgün yerinə yetirilməməsi kimi qeyd olunmuşdur. Lakin bu əsərlərdə və elmi işlərdə ideoloji tələblərin nəfəsi duyulmasına baxmayaraq, onlar elmi tədqiqat baxımından çox qiymətlidir.

Bu illər ərzində fərdi və kollektiv əsərlər çap olunmuşdur. Onlar tədqiq edilən dövrlərdə mədəni sahədə dəyişikliklərin, təhsilin, elmin inkişafının mahiyyətini açmağa imkan verir. Bu əsərlərdə mədəniyyətə və onun ayrı-ayrı sahələrinə aid zəngin materiallar verilmişdir. Mədəniyyət tarixini öyrənmək baxımından 7 cildlik "Azərbaycan tarixi" qiymətli əsərdir. Kitabda XX əsrin 70-80-ci illərində mədəniyyətin inkişafının bütün tərəfləri milli maraqlar, ideoloji ehkamlardan uzaq şəkildə açılıb göstərilir.[1]

Respublikanın iqtisadi-sosial həyatına, beşilliklərin nəticəsinə həsr edilmiş ümumiləşdirici və fərdi kitablarda mədəniyyət məsələləri əksini tapmışdır. Onlardan H.Əliyev, S.Qəndilov, Z.

---

[1] Azərbaycan Tarixi. Yeddi clddə. VII cild (1941-2002-ci illər). Bakı: 2008.

Səmədzadə və M.Musayevin, C.Quliyev, Q.Ə.Mədətov, T.Qaffarov və Y.Mahmudovun müəllifləri olduqları nəşrləri fərqləndirmək olar.[1]

N.Paşayevin monoqrafiyası mədəni quruculuq sahəsini kompleks şəkildə əhatə edən böyük həcmli işdir. Burada Sovet Azərbaycanı qurulduğu ildən 1970-ci illərin əvvəllərinə qədər mədəniyyətin inkişafının yolları izlənilir. Lakin bu əsər həddən artıq ideologiyalaşdırılmışdır[2].

Azərbaycanda sovet dövrünün mədəni quruculuğunun öyrənilməsində T.H.Musayevanın elmi axtarışları xüsusi əhəmiyyət kəsb edir. Onun elmi əsərlərində mədəniyyətin inkişafı, tarixi, problemləri, nailiyyətləri geniş və hərtərəfli şəkildə şərh edilmişdir.[3] T.Musayevanın 3 və 7 cildlik "Azərbaycan tarixi" kitablarında yazılmış fəsillərdə mədəniyyətin inkişafı kompleks şəkildə əksini tapmışdır.

Dövrün tarixşünaslığında məktəb quruculuğu, ali təhsil məsələləri həmişə diqqət mərkəzində olmuşdur. Bu məsələlər elmi araşdırmalarda, kollektiv kitablarda və ayrı-ayrı monoqrafiyalarda işıqlandırılmışdır.

Azərbaycanda orta təhsilin inkişafında xüsusi yeri olmuş akademik M.Mehdizadənin tədqiqatları da qiymətlidir. M.Mehdizadə T.Allahverdiyev və K.Əliyevin birgə hazırladıqları "Azərbaycanda xalq təhsilinin çiçəklənməsi" monoqrafiyası orta təhsilin inkişafını - xüsusəndə ümumicbari təhsilə keçid məsələləri,problemləri və nəticələrini öyrənmək baxımından qiymətli əsərdir.[4]

Dövrün orta məktəb quruculuğu S.İsmayılovanın, Ş.Əfəndiyevanın elmi işlərində tədqiq olunmuşdur. Bu əsərlərdə ümumtəhsilə keçid, məktəb təminatı və başqa məsələlər əksini tapmışdır.[5]

---

[1] Əliyev H.Ə. Azərbaycan Kommunist Partiyasının 60 illiyi. Bakı: 1980; Əliyev H.Ə. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər. Məruzələr. Çıxışlar. Bakı: 1999; Əliyev H.Ə. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər. Məruzələr. Çıxışlar. Bakı: 2000; Əliyev H.Ə. Xalqların dostluğu ədəbiyyatların dostluğudur. Bakı: 1980; Əliyev H.Ə. Sovet Azərbaycanı. Bakı: 1981; Qəndilov S. Coşqun yüksəliş illəri. Bakı: 1984; Səmədzadə Z., Musayev M. Onuncu beşillikdə Sovet Azərbaycanının iqtisadi və sosial inkişafi. Bakı: 1981; Quliyev C., Mədətov Q. Sovet Naxçıvanı. Bakı: 1984; Qaffarov T.Azərbaycan tarixi 1920-1991. Bakı: 1999; Махмудов.Я. Азербайджан: Краткая история государственности. Баку: 2005.

[2] Пашаев Н.А. Победа культурной Революции в Советском Азербайджане. Баку: 1976.

[3] Мусаева Т.А. Революция и народное образование в Азербайджане. Баку: 1979.

[4] Мехтизаде М.М., Аллахвердиев Т.А., Алиев К.Г. Расцвет народного образования в Азербайджане. Баку: 1980.

[5] Исмаилова С. Развитие общеобразовательной школы в Азербайджанской ССР в условиях развитого социализма (1971-1975 г. г.): Автореф. дис. канд. истор. наук.

S.Babayevin monoqrafiyası zəngin mənbəşünaslıq bazasına malikdir. Burada faktiki material əsasında 80-ci illərin ortalarına qədər məktəb quruculuğu geniş və hərtərəfli şəkildə göstərilmişdir.[1]

Peşə və orta ixtisas təhsili də tədqiqatçılarda maraq doğurmuşdur. C.Saniyevin "Azərbaycanda ixtisaslı fəhlə kadrların hazırlanması" namizədlik işi və A.Atakişiyev, R.Süleymanov və S. Kərimovun hazırladıqları monoqrafiya təhsilin bu növünün tədqiqində vacib araşdırmalardı.[2] Ə.Muxtarovanın "Aqrar-sənaye kompleksi şəraitində fəhlə kadrların formalaşması" və "Azərbaycan SSR-də kənd təsərrüfatı fəhlələri" monoqrafiyaları aqrar sahə üçün orta-ixtisaslı kadrların hazırlanmasına, A.Rzayevin dissertasiyası səkkizinci, K.Mirzəyevin dissertasiyası isə doqquzuncu beşilllikdə texniki-peşə təhsilinin inkişafına həsr olunmuşdur.[3]

Azərbaycanda ali təhsilin tədqiqi də diqqət mərkəzində olmuşdur. Ali təhsilə dair müstəqil, kollektiv və ayrı-ayrı ali məktəblərin tarixinə aid nəşrlər hazırlanmışdır. K.Əliyev, A.Atakişiyev, T.Baxşəliyev, E.İsmayılov, R.Süleymanov və Z.Şıxlinskinin Azərbaycanda ali təhsilin inkişafı haqqında kollektiv monoqrafiyası çox dəyərlidir. Bu kitabda tədqiq etdiyimiz dövrün ilk onilliyi də verilmişdir.[4]

Ayrı-ayrı ali məktəblərin tarixi haqda maraqlı tədqiqat işlərindən A.Atakişiyevin Azərbaycan Dövlət Universiteti, B.Ağayevin Azərbaycan Dövlət Pedaqoji Universiteti haqda kitabları qiymətli faktlarla zəngindir.[5]

---

Баку: 1985. Эфендиев Ш.Ф. Общеобразовательные школы в Азербайджанской ССР (1975-1985 г.г.): Автореф. дис. канд. истор. наук. Баку: 1990.

[1] Babayev S.M. Azərbaycan SSR-də ümumtəhsil məktəblərinin inkişafında sovetlərin rolu (1960-1985-ci illər) Bakı: 1987.

[2] Saniyev C.Azərbaycanda ixtisaslı fəhlə kadrların hazırlanması (1981-90-cı illər): Tarix elm. nam. dis. avtoref. Bakı: 1993; Атакишиев А.,Сулейманов Р., Керимов С. Развитие среднего специального образования в Азербайджане(1920-1985).Баку: 1990.

[3] Muxtarova Ə.M. Aqrar-sənaye kompleksi şəraitində fəhlə kadrların formalaşması. Bakı: 1987; Yenə onun, Azərbaycan SSR-də kənd təsərrüfatı fəhlələri 1971-1985-ci il. Bakı: 1990; A.Rzayev Kommunist partiyasının rəhbərliyi altında 1971-1975-ci illərdə texniki-peşə təhsilinin inkişafı. Tarix elm. nam. dis. avtoref. Bakı: 1982; Мирзоев К. Развитие профессионально-технического образования в Азербайджанской ССР в десятой пятилетке (1976-1980 г.г.): Автореф. дис. канд. истор. наук. Баку: 1987.

[4] Алиев К., Атакишиев А., Бахшалиев Т., Исмаилов Э., Сулейманов Р., Шихлинский З.Б. Развитие высшей школы в Советском Азербайджане. Баку: 1984.

[5] Атакишиев А.М. История Азербайджанского Государственного Университета. Баку: 1989; Ağayev B.İ. Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarixi (1920-2001). Bakı: 2001.

M.Salahovun zəngin material əsasında yazdığı monoqrafiyası Azərbaycanda ali təhsilin 50 ildən artıq bir dövrünü əhatə edir. Onun tədqiq etdiyimiz dövrə dair arxiv materiallarından, gəldiyi vacib elmi nəticələrə baxmayaraq, əsərin sovet dövründə yazılması onun bir sıra vacib məsələlərə dövrün tələbi ilə yanaşmasına səbəb olmuşdur. Onu da qeyd edək ki, bu elmi işdə 80-ci illər zəif işıqlandırılmışdır.[1]

M.Mərdanovun "Azərbaycan təhsili dünən, bu gün, sabah" əsərində və "Azərbaycan təhsil tarixi" yeddi cildlik kitabının II cildində 70-80-ci illərdə təhsil sahəsində həyata keçirilən islahat və tədbirlər, o cümlədən tədqiq edilən dövrün tarixi ətraflı şəkildə şərh edilmişdi.[2]

Respublikada elmin inkişafı özünəməxsus yer tutmuşdur. Elmlər Akademiyasının yaradılması, inkişafı T.Musayevanın və A.Məmmədovun zəngin materiallar əsasında hazırladıqları tədqiqat əsərində geniş şərh edilmişdir. Əsər Elmlər Akademiyasının formalaşması və elmi kadrların yetişdirilməsinin öyrənilməsi baxımından qiymətlidir. O, cümlədən T.Kərimovanın monoqrafiyasında da Elmlər Akademiyasının yaradılması, elmi və elmi-pedaqoji kadrların hazırlanması əksini tapmışdır.[3] Təəssüflə qeyd etməliyik ki, Azərbaycanda elmin inkişafı tədqiqatçılar tərəfindən kompleks şəkildə araşdırılmamışdır. Yalnız Elmlər Akademiyasının yubileyləri üzrə çap olunan nəşrlərdə dəyərli və maraqlı faktlar əsasını tapmışdır. Lakin bunlar, əsasən xronoloji xarakter daşımış, geniş şərh və təhlillərə yer verilməmişdir.[4]

K.Əliyev və V.Orucovun 1970-1980-ci illər xronoloji çərçivəsini əhatə edən monoqrafiyasında ali məktəblərdə elmin inkişafı yolları izlənilir. Ali məktəblərin təhsillə yanaşı mühüm elmi araşdırmaların aparıldığı mərkəzlər kimi göstərilir.[5]

Qeyd olunan dövrün tarixşünaslığında mədəni-maarif işinə diqqət xüsusi olmuşdur Azərbaycanda kitabxanaçılığın önəmli tədqiqatçısı kimi tanınan və bu sahənin müstəqil elm kimi forma-

---

[1] Салахов.М.Н. Высшее образование в Азербайджане: история, проблемы, перспективы. Баку: 1990.

[2] Mərdanov M.C. Azərbaycan təhsili dünən, bu gün, sabah. Bakı: 2006; Azərbaycan təhsil tarixi. II cild. (1920-1991-ci illər). Bakı. 2011.

[3] Мусаева Т.А., Мамедов А.А. На путях создания Национальной Академии Наук и формирования кадров научной интеллигенции Азербайджана (1920-1945гг.). Баку 2005. Керимова Т. Из истории Национальной Академии Наук Азербайджана. Баку: 2005.

[4] Академии Наук Азербайджанской ССР – 30 лет (Под.ред. Абдуллаева Г.Б.). Баку: 1975; Azərbaycan Elmlər Akademiyası – 50 (red. E.Y.Salayev). Bakı: 1995.

[5] Алиев К.Г., Оруджев В.А. Развитие науки в вузах Азербайджана за годы IX и X пятилеток. Баку: 1985.

laşmasında A.Xələfovun xüsusi rolu vardır. A.Xələləfov kitabxanaçılıq işi, kitabxana şəbəkəsinin genişlənməsi haqqında maraqlı araşdırmalar hazırlamışdır. Onun yazdığı "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" əsəri dövrün kütləvi və sahə kitabxana şəbəkəsi haqqında qiymətli əsərdir. Bundan əlavə T.Quliyevin kitabında həmkarlar təşkilatları kitabxanaları haqqında məlumatlar əksini tapmışdır. Ş.İslamovanın "Azərbaycan Respublikası Elmlər Akademiyasının kitabxana şəbəkəsinin təşəkkülü və inkişafı (1923-1990)" namizədlik dissertasiyası bu sahənin öyrənilməsində maraqlı tədqiqat işidir. Ə.Nəcəfovun monoqrafiyası Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana sisteminin təşkilinə və inkişafına həsr olunmuşdur. S.Xələfovanın "XX əsrin 70-80-ci illərində kütləvi kitabxana şəbəkəsinin inkişafı" dissertasiyası müasir dövrün tələblərinə uyğun yazılmışdır.[1]

Tarix-diyarşünaslıq muzeylərinin inkişaf yolu B.Kərimovun tədqiqatında əksini tapmışdır. A.Yunusovun dissertasiyasında isə Sovet hakimiyyəti yarandığı gündən 80-ci illərin əvvəllərinə qədər respublikada muzey işinin inkişafı tarixi yolu izlənilir.[2]

Lakin bu tədqiqat işlərində uğur və nailiyyətlər qabardılır nöqsan və çatışmazlıqlar əsasən yerlərdə mərkəzin tapşırıqlarının yerinə yetirilməməsi ilə izah olunurdu. Bu qəbildən R.Quliyev, V.Axundov, M.Məmmədov və T.Əhmədovanın elmi işlərində mədəni-maarif məsələləri işıqlandırılmışdır.[3]

Göstərilən illərin tarixşünaslığında kənd həyatı mühüm yer tutduğundan kənd həyatına dair xeyli sayda monoqrafiya və kitablar dərc olunmuşdur. Bu əsərlərdə kənd yerlərində mədəni quruculuq məsələlərinə toxunulmuşdur. Onlardan H.Allahverdiyev,

---

[1] Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: 2006; Quliyev T.F. Azərbaycanda kitabxanaçılıq işi. Bakı: 1986; Nəcəfov Ə.Ş. Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana işinin tarixi (1923-1988-ci illər). Bakı: 2001; Xələfova S.A. XX əsrin 70-80-ci illərində Azərbaycanda kütləvi kitabxana şəbəkəsinin inkişafı: Tarix elm. nam. dis. avtoref. Bakı: 2008.

[2] Kərimov B. Azərbaycanda tarix-diyarşünaslıq muzeylərinin təşkili və inkişafı: Tarix elm. nam. dis. avtoref. Bakı: 2005; Юнусов А.История музейного строительства в Азербайджанской ССР (1920-1980 г.г): Автореф. дис. канд. истор. наук. Баку: 1987.

[3] Гулиев Р.Социально - экономическое и культурное развитие Нахчиванской АС СР (1971-1980 г.г.): Автореф. дис. канд. истор. наук. Баку: 1980. Ахундов В.Дж. Развитие культурно-просветительной работы в Азербайджанской ССР в условиях развитого социализма (1971-1975г.г): Автореф. дис. канд. истор. наук. Баку: 1981; Мамедов М.М. Культурно-просветительная работа в Азербайджанской ССР в условиях совершенствования социализма (1976-1980 г.г): Автореф. дис. канд. истор. наук. Баку: 1981; Ахмедова Т.Г. Культурно-просветительная Работа в Азербайджане (1981-1990 гг.): Автореф. дис. канд. истор. наук. Баку: 1992;

M.Əfəndiyev, V.Aşırov, F.Maniyev, S.Hüseynov, X.Orucov və T. Qaffarovun işlərini fərqləndirmək olar. Göstərilən müəlliflərdən T.Qaffarovun ikinci dəfə məsələ ilə əlaqədar çap olunan əsərində mədəni quruculuq problemlərinə yeni yanaşma olmuş, ictimai-iqtisadi həyatla yanaşı mədəni quruculuğun problem və səbəblərinə də toxunulmuşdur.[1]

Azərbaycanda sosial həyatın tədqiqində mədəniyyət məsələləri diqqətdən yayınmamışdır. E.İsmayılovun elmi işində təhsilin cəmiyyətin həyatında tutduğu mövqe, T.Baxşəliyevin monoqrafiyasında 60-80-ci illərdə Azərbaycan SSR-də ziyalı kadrların fəaliyyəti, L.Həsənovanın "Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında" monoqrafiyasında Azərbaycan SSR-də ümumi demoqrafik göstəricilərlə yanaşı, əhalinin mədəni xarakteristikası da tədqiq olunmuşdur.[2]

Müstəqillik illərində də mədəni inkişafın müəyyən problemlərinə toxunulmuş, bu sahə üzrə vacib elmi araşdırmalar aparılmışdır. Ə.Abdullayevin və A.Hacılının Azərbaycan kəndində mədəni quruculuğa aid tədqiqatlarında göstərilənlər öz əksini tapmışdır.[3]

İ.Zeynalovun "70-80-ci illərdə Azərbaycanın sosial-iqtisadi vəziyyəti" monoqrafiyasında iqtisadi, sosial məsələlərlə yanaşı təhsilədə toxunulur. Orada nailiyyət və uğurlarla birlikdə məktəb quruculuğunda olan nöqsan və çatışmazlıqlarda konkret faktlarla qeyd olunmuşdur.[4]

---

[1] Allahverdiyev H.B. Azərbaycan kəndinin sosial inkişafı. Bakı: 1980; Əfəndiyev M.Ə. Azərbaycan kəndinin mənəvi inkişafı. Bakı: 1982; Aşırov V.Q. Kəndin mənəvi inkişafının mühüm amili. Bakı: 1985; Маниев Ф.С. Социальные сдвиги в азербайджанской деревни на современном этапе. Баку: 1986; Hüseynov S.H. Azərbaycan kəndinin iqtisadi, sosial və mədəni inkişafı. Bakı: 1986; Orucov X.H. Müasir Azərbaycan kəndinin sosial-mədəni inkişafı problemləri. Bakı: 1990; Qaffarov T.B. Azərbaycan SSR kənd əhalisinin maddi rifahı və mədəni səviyyəsinin yüksəldilməsi (60-80-ci illərin birinci yarısı). Bakı: 1986; Yenə onun: Azərbaycan kənd əhalisinin həyat tərzi: ümumbəşəri və maddi dəyərlərin deformasiyası (1960-1990). Bakı: 1992.

[2] Исмаилов Э. Изменения в социальной структуре общества в Азербайджанской ССР (1960-70 г.г): Автореф. дис. док. ист. наук. Москва: 1990; Бахшалиев Т. Изменения в численности и составе интеллигенция Азербайджанской ССР в 60-80 годы. Баку 1989; Həsənova L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında. Bakı: 2003.

[3] Abdullayev Ə. Azərbaycan kəndində mədəni quruculuq (1976-1980-ci illər): Tarix elm. nam. dis. avtoref. Bakı:1992; Hacılı A.H. Azərbaycan kəndinin sosial-mədəni problemlərinin həll edilməsində ictimai təşkilatların rolu (1976-1985-ci illər): Tarix elm. nam. dis. avtoref. Bakı: 1994.

[4] Zeynalov İ. Azərbaycanın iqtisadi və sosial inkişafı (70-80-ci illər). Bakı: 1996.

1969-1982-ci illərdə Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə mədəniyyətin inkişafına verdiyi töhfələr tədqiqatçıların marağından yayınmamışdı. Onlardan İ.Hüseynovanın "Müstəqil Azərbaycan dövlətinin yaranması və möhkəmləndirilməsində Heydər Əliyevin rolu" monoqrafiyası və S.Pişnamazzadənin "Heydər Əliyev və Azərbaycan Respublikasında milli mənəvi dəyərlərin qorunması" namizədlik dissertasiyalarını göstərmək olar.[1]

Ə.Qasımovun "Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80-ci illəri)" monoqrafiyasında H.Əliyevin 70-80-ci illərin birinci yarısında Naxçıvan Muxtar Respublikasının tərəqisi naminə göstərdiyi fəaliyyət təhlil edilmiş, iqtisadiyyatla yanaşı mənəvi-mədəni həyatda işıqlandırılmışdır.[2]

H.Əliyevin tədqiq edilən illərdə respublikada mədəniyyətin inkişafının ayrı-ayrı sahələrində tutduğu mövqe B.Nəbiyev, M. Qasımlı, H.Hüseynov, V.Əliyev, Ə.Əhmədov, N.Cəfərov, Y.Mahmudov və E.Axundovanın kitablarında əksini tapmışdır.[3]

Bundan əlavə Mədəniyyət Nazirliyinin nəşr etdirdiyi "Heydər Əliyev və mədəniyyət" iki cildliyinin I cildində 1969-1982-ci illərdə mədəniyyətin inkişafında həyata keçirilmiş bütün tədbirlər əhatə olunmuşdur. A.A.Bakıxanov adına Tarix institutunun "Heydər Əliyev" iki cild kollektiv monoqrafiyasında da tədqiq edilən dövrdə Azərbaycan mədəniyyətinin inkişafında görülən məsələlər əksini tapmışdır.[4]

Ədəbiyyat və incəsənət sahəsində kifayət qədər kitab və monoqrafiyalar yazılsa da, bunlar əsasən tarixçilər tərəfindən deyil incəsənətşünas və ədəbiyyatçılar tərəfindən yazılmışdır. Yalnız N. Mehdiyevanın yaradıcılıq ittifaqlarının fəaliyyətinə həsr olunmuş əsəri sırf tarixi nöqteyi nəzərdən yazılmış, qoyulan problemlərə

---

[1] Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu: monoqrafiya. Bakı: 2004; Pişnamazzadə C.P. Heydər Əliyev və Azərbaycan respublikasında Milli mənəvi dəyərlərin qorunması: Tarix elm. nam.dis. avtoref. 2008.

[2] Qasımov Ə. Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80-ci illəri). Bakı: 2009.

[3] Nəbiyev B.Ə. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı: 2009; Qasımlı M.C. Heydər Əliyev – İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı: 2006; Hüseynov H. Heydər Əliyev Azərbaycanın tarixi, İlham Əliyev bu tarixin davamıdır. Bakı: 2004; Əliyev.V. Heydər Əliyevin dil siyasəti. Bakı: 2003; Əhmədov Ə. Heydər Əliyev və Bakı Dövlət Universiteti. Bakı: 1997; Cəfərov N.Q. Azərbaycanşünaslığa giriş. Bakı: 2002; Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: 2002; Axundova E. H. Heydər Əliyev: şəxsiyyət və zaman II hissə, 1969-1982. Bakı: 2007.

[4] Heydər Əliyev və mədəniyyət. 2 cilddə (I cild, 1969-1982). Bakı: 2008. Heydər Əliyev. II cild. Bakı 2013.

tarixi metodoloji əsasda yanaşılmışdır. Monoqrafiya işi əsasən yaradıcılıq ittifaqlarının təbliğat fəaliyyəti üzərində qurulsada, mühüm tarixi və zəngin mənbəşünaslıq bazasına malikdir.[1]

İ.Rəhimli, C.Cəfərov, R.Ağayev teatr, A.Kazımzadə kino, F. Əliyeva musiqi, Y.Qarayev, Y.Axundlu ədəbiyyat tarixinin tədqiqatçıları kimi əhəmiyyətli araşdırma müəllifləridirlər. C.Abdullayevin redaktəsi ilə ədəbiyyata, K.Kərimov, R.Əfəndiyev, H.Rzayev, H.Həbibovun incəsənətə dair kollektiv kitabları da tarixşünaslığın mühüm mənbələridir.[2]

Onu da qeyd edək ki, Azərbaycanda mədəniyyətin inkişafı tək respublika daxili ilə məhdudlaşmayıb, bir növ xaricə də ixrac olunmuşdur. Bu məqsədlə mədəni əlaqələrdə tədqiqatçıların diqqətindən yayınmamışdı. B.Qurbanovun incəsənətə, N.Axundovun ədəbiyyata dair əsərləri qiymətlidir. M.Qasımlının monoqrafiyası mədəni əlaqələrin öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Burada mədəni əlaqələr geniş şəkildə şərh edilmiş, vacib elmi nəticələr əldə edilmişdir.[3]

Yuxarıda gördüyümüz kimi tədqiq olunan dövrə aid xeyli ədəbiyyat və tədqiqat işləri yazılmasına baxmayaraq, onların hamısı ümumi şəkildə XX əsrin 70-80-ci illərinin mədəniyyətini tam şəkildə özündə əks etdirmədiyindən yeni tədqiqat əsərinin yazılmasına ehtiyac vardır.

**Tədqiqatın mənbə bazası**. Dissertasiya işinin yazılması prosesində müəyyən qədər zəngin mənbəşünaslıq bazasından istifadə edilmişdir. Bunlar arasında olan arxiv sənədləri, elmi, tarixi ədəbiyyat, dövrü mətbuat materialları, statistik məcmuə və elmi-sənədli nəşrlərdən istifadə dissertasiyada qarşıya qoyulmuş məsələlərin həllində çox böyük köməyi olmuşdur. Bir sıra qiymətli

---

[1]Mehdiyeva N.C.Azərbaycan yaradıcılıq ittifaqlarının kütləvi təbliğat sahəsində fəaliyyəti (1960-1980-ci illər). Bakı: 1990.

[2] Rəhimli İ. Azərbaycan teatr tarixi. Bakı: 2005; Cəfərov C.H. Azərbaycan teatrı (1873-1974). Bakı: 1974; Ağayev. R.Ə. Müasir Azərbaycan xalq teatrları. Bakı: 1979; Kazımzadə A.Ə. Azərbaycan kinosu, I cild (1898-2002) Bakı: 2003; Yenə onun. Azərbaycan kinosu, II cild (1898-2002). Bakı: 2003; Yenə onun Ə.Heydər Əliyev və kinematoqraf. Bakı: 2007; Əliyeva F.Ş. Musiqi tariximizin səhifələri. Bakı: 2003; Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. Bakı: 2002; Axundlu Y.İ. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər (1930-2000). Bakı: 2005; Müasir Azərbaycan ədəbiyyatı / C.M.Abdullayevin redaktəsi ilə II cild, Bakı: 2007; Kərimov K.S., Əfəndiyev R.S., Rzayev H.İ., Həbibov H.D. Azərbaycan incəsənəti. Bakı:1992.

[3] Qurbanov B.O. Azərbaycan sovet musiqi mədəniyyəti və xarici mətbuat. Bakı: 1978; Ахундов Н. Азербайджанская советская литература за рубежом. Баку: 1984; Гасымлы М.Дж. Азербайджан в международных культурных связях (1946-1990 гг.). Тбилиси: 2005.

çoxcildlik əsərlər də əsas mənbəşünaslıq bazasıdır. Tədqiq edilən dövrün müxtəlif sahələrini araşdırmaq üçün partiya və ictimai-təşkilatların qərarlarından istifadə edilmişdir.

Məktəb, orta-ixtisas və ali məktəb fəaliyyətinin işıqlandırılmasında Azərbaycan Təhsil Nazirliyinin cari arxivinin materiallarından istifadə olunmuşdur. Təhsil Nazirliyinin arxivində Maarif, Orta-İxtisas və Ali məktəb Nazirliyinin, Texniki-Peşə Təhsili Dövlət Komitəsinin materialları I, 57 və 2672-cı fondda saxlanılır. Elm haqda yazılarkən Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycanda Elmi İrsin Toplanması və Sistemləşdirilməsi şöbəsinin materiallarından istifadə olunmuşdur. Mədəni-maarif, ədəbiyyat və incəsənətin tədqiq olunmasında S.Mümtaz adına ARDƏİA-nın fondlarının əvəzsiz rolu olmuşdur. Burada 501-ci fondda Mədəniyyət Nazirliyinin, 388-də Azərbaycan SSR Dövlət Kinematoqrafiya Komitəsinin, 340-da Azərbaycan Yazıçılar İttifaqının, 344-də Azərbaycan Rəssamlar İttifaqının, 444-də Azərbaycan Kinematoqrafçılar İttifaqının, 486-cıda Azərbaycan Teatr Cəmiyyətinin arxivləri yerləşir.

Azərbaycan SSR-də 70-80-ci illərdə çap olunan kütləvi dövrü mətbuat vasitələrindən, qəzet və jurnallardan – ali məktəb elmi məcmuələri, “Azərbaycan”, “Ədəbiyyət və İncəsənət”, “Elm”, “Бакинский рабочий” qəzetlərində olan məlumatlardan istifadə olunması seçilmiş mövzunu daha əhatəli tədqiq etməyə imkan vermişdir.

Mövzunun tədqiqində mədəni inkişafın dinamikasını izləməyə imkan verən statistika materialları əvəzsiz mənbələrdir. Bu statistik toplularda təhsil, elm, mədəni-maarif, nəşriyyat, incəsənət sahələrində əldə edilmiş naliyyətlər əksini tapmışdır. 2000 və 2001-ci illərdə çap olunmuş toplulardakı statistik materiallar, tədqiq olunan illərlə müqayisə aparmağa imkan verir. Onu da qeyd etmək lazımdır ki, arxiv materiallarında və statistik məcmuələrdə bir-birinə uyğun gəlməyən fakt və rəqəmlərə də rast gəlinmişdir. Bu səbəbdən onlar arasında müqayisələr və hesablamalar aparılaraq vahid rəqəmlər alınmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Qarşıya qoyulmuş əsas məqsəd 1970-1980-ci illərdə Azərbaycan SSR-də mədəniyyətin inkişafını, bu sahədə əldə olunmuş uğurları, nailiyyətləri göstərmək, problem və çatışmazlıqların səbəbini öyrənməkdən ibarətdir. Problemin mürəkkəbliyini, tədqiq olunma dərəcəsini nəzərə alaraq müəllif qarşıya bu məqsədləri qoymuşdur:

- tədqiq edilən dövrdə mədəni inkişafın bütün tərəflərini açıb göstərmək;
- mədəni sahədə əldə olunan zəngin təcrübəni ümumiləşdirmək;

- mədəni inkişafı əngəlləyən çətinlikləri, nöqsan və ziddiyyətləri aşkar etmək;

- mədəni inkişafın iqtisadiyyatın inkişafı ilə əlaqədar olduğunu göstərmək, tədbir və dövlət qərarlarının əhəmiyyətini qeyd etmək;

- təhsil, elm, mədəni-maarif, nəşriyyatın, ədəbiyyatın və incəsənətin inkişaf fəaliyyətini işıqlandırmaq;

- mədəni inkişafın əhalinin böyük kütləsini əhatə etməsi, onun mədəni səviyyəsinin yüksəlməsində rolunu qeyd etmək;

- konkret materiallar – arxiv sənədləri, statistik göstəricilər əsasında ali, orta və texniki-peşə məktəbləri, mədəni-maarif müəssisəsi şəbəkəsinin genişləndirilməsi, onların maddi-texniki bazasının yaxşılaşdırılması məsələlərini təhlil etmək;

**Dissertasiya işinin metodoloji əsası** qoyulan problemə tarixi səpgidən yanaşılmasıdır. Müəllif topladığı fakt və materialları müqayisəli təhlil metodu vasitəsi ilə araşdırmış, onları ümumiləşdirərək elmi nəticələrin meydana çıxmasına zəmin yaratmışdır. Qarşıda qoyulmuş məqsəd və vəzifələri yerinə yetirmək üçün elmi prinsiplərə əməl edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi bu amillərlə izah edilir:

- Azərbaycanın sovet dövründə mədəniyyətinin inkişafı ümumilikdə göstərilən xronoloji çərçivədə ilk dəfə olaraq kompleks şəkildə tədqiq olunur və elmi cəhətdən ümumiləşdirilərək göstərilir:

- Azərbaycanda mədəniyyətin inkişafının özünə məxsusluğu, onun mədəni dəyərlərə təsiri, xüsusiyyətləri təhlil edilib araşdırılır;

- Qoyulmuş məsələlərə kompleks yanaşma Azərbaycan SSR-də 70-80-ci illərdə mədəni inkişafın mahiyyətini tam açmağa imkan verir;

- Dissertasiyada əvvəllər çap edilməyən arxiv materiallarından − xüsusən S.Mümtaz adına ARDƏİA-nın fondlarından, elmi dövriyyəyə ilk dəfə gətirilən sənədlərdən istifadə qoyulan problemin daha dərindən öyrənilməsinə şərait yaradır;

- Tədqiqat işində ilk dəfə olaraq müasir dövr tarixçilərinin əsərlərindən istifadə edilmiş, müqayisəli təhlillər aparılmışdır;

- Göstərilən illərdə baş verən hadisələrə ideoloji ehkamlardan uzaq yenidən baxmaq, əsl tarixi qiymətini vermək imkanını yaradır;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində tədqiq olunmuş dövr Azərbaycan SSR-də mədəniyyətin inkişafı tarixinin öyrənilməsi cəhətdən aktualdır. Tədqiqat işinin nəticələrindən elmi-pedaqoji fəaliyyətdə, gələcəkdə mədəni inkişafın

tədqiqində, mədəniyyət tarixinə aid dərslik və kitabların yazılmasında istifadə oluna bilər.

**Tədqiqatın abrobasiyası.** Tədqiqat işi Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın müasir tarixi" şöbəsində iki dəfə müzakirə edilmiş və müdafiəyə buraxılmaq üçün məsləhət görülmüşdür. Tədqiqatın əsas mövzusu müəllifin elmi məqalələrində, həmçinin elmi-praktiki konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, dörd fəsil, 8 paraqraf, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

## II. Dissertasiyanın əsas məzmunu

**«Giriş»** hissəsində dissertasiya işinin aktuallığı əks olunmuş, tətqiqatın xronoloji çərçivəsi əsaslandırılmış, məqsəd və vəzifələr müəyyən edilmiş, mənbə bazası və problemin öyrənilmə səviyyəsi təhlil edilmiş, işin elmi yeniliyi, metodoloji əsasları və nəzəri əhəmiyyəti qeyd olunmuşdur.

**I fəsil - «Maarif sahəsində problemlər və təhsilin səviyyəsinin yüksəlişi»** iki paraqrafdan ibarətdir. Birinci, **«Məktəb quruculuğu: ümumi icbari orta təhsilə keçid»** adlı paraqrafda göstərilir ki, 1972-ci il avqustun 10-da Azərbaycan KP MK və Nazirlər Soveti tərəfindən "Gənclərin ümumi orta təhsilə keçməsinin başa çatdırılması və ümumtəhsil məktəblərinin işinin daha da inkişaf etdirilməsi haqqında"[1] qərar qəbul edilmiş və onun müddəalarının yerinə yetirilməsi yolunda tapşırıqlar verilmişdir. Pespublikada ümumi icbari orta təhsilə keçid əsasən iki istiqamətdə – birincisi məktəblərin iş şəraitinin yaxşılaşdırılması, yeni məktəblərin tikintisi, ikincisi isə təhsilin forma və metodlarının yenilənməsi, müasirləşməsi, kadr hazırlığının gücləndirilməsi fonunda aparılırdı. Nəticədə qısa dövr ərzində ümumtəhsilin inkişafında əsaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verdi. Paraqrafda 1971-1975-ci illərdə ümumi icbari orta təhsilə keçidin müvəffəqiyyətlə başa çatdırılmasının nəticəsi şərh olunur.

Məktəblərin maddi-tədris bazasının qüvvətləndirilməsi yeddiillik, səkkizillik məktəblərin onillik təhsil sisteminə keçidinə şərait yaratdı. Tədqiq olunan illərdə Azərbaycan təhsil sistemi və onun inkişaf dinamikasını özündə əks etdirən bir sıra göstəricilərə baxdıqda hər birində orta hesabla 372 yer olan 703 minlik 1058

---

[1] Мехтизаде М.М., Аллахвердиев Т.А., Алиев К.Г. Расцвет народного образования в Азербайджане. Баку: 1980. 256 с.

böyük və müasir məktəb binalarının tikilməsini görürük.[1] Məktəblər say artımı ilə yanaşı, öz keyfiyyətlərinə görə də fərqlənirdilər.

Məktəb islahatı tədris olunan fənnlərin artırılmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə səbəb olmuşdu. Rus dilinin kənd məktəblərində tədrisi genişləndirildi. 1978-ci ildən başlayaraq bütünlüklə ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərlə pulsuz təminatına keçildi. 1985-86-cı tədris ilindən EVM fəninin keçilməsinə başlanmışdır. Lakin Azərbaycan tarixinin tədrisinə biganəlik qalmaqda idi. Müəllim kadrların hazırlanmasına, ixtisaslarını artırılmasına diqqət verilmişdir. Bu məqsədlə Naxçıvan, DQMV, Gəncə və Şəki şəhərində Müəllimlərin Təkmilləşdirmə İnstitutları yaradılmışdır.

Məktəbin istehsalatla əlaqəsinin möhkəmlənməsinə xüsusi diqqət verilir, texniki-peşə təhsilinin şəbəkəsi genişləndirilirdi. 1970-1971-ci il tədris ilində 6 min gəncin təhsil aldığı 19 texniki-peşə məktəbi vardısa[2], 1990-1991-ci tədris ilində texniki-peşə məktəbləri və liseylərdə 84 min şagird təhsil alırdı.[3] “Gənclərin ümumi orta təhsilin daha da təkmilləşdirilməsi və ümumorta təhsil məktəblərinin işinin yaxşılaşdırılması haqqında” 1984-cü il qərarı məktəb islahatının həyata keçirilməsində və orta məktəblərin 11 illik təhsilə keçməsinə hazırlıq mühüm yer tuturdu. 1970-1971-ci tədris ilində respublikada 5096 ümumtəhsil məktəblərində 1438 min şagird, 73 min müəllim[4], 1990-1991-ci il dərs ilində isə 4356 məktəbdə 1,4 milyon şagird, 132 min müəllim çalışırdı.[5]

Lakin nöqsanlarda qalmaqda idi. Kənd yerlərində təhsildən yayınma halları azalmasına baxmayaraq, xüsusəndə qızların VIII sinifdən sonra məktəbdən qalmasına rast gəlinirdi. Şagirdlərin təhsil prosesindən uzaqlaşdırılıb kənd təsərrüfatı işlərinə cəlb olunması, göndərilən gənc müəllimlərə lazımi şərait yaradılmaması nəticəsində kənd yerlərində kadr çatışmazlığı təhsil sisteminin inkişafına mane olan amillərdən idi.

**«Ali və orta ixtisas təhsilinin mədəni həyatda rolu»** adlı ikinci paraqrafda ali təhsil sahəsində görülmüş işlər arasında 70-80-ci illərdə ali təhsil müəssisələrinin maddi-texniki bazasının

---

[1] Qafarov T.B. Azərbaycan SSR kənd əhalisinin maddi rifahı və mədəni səviyyəsinin yüksəldilməsi (60-80-ci illərin birinci yarısı). Bakı:1986. 180 s.

[2] Народное хозяйство Азербайджанской ССР за 60 лет. Юбилейный статистический сборник. Баку: 1980. с.280.

[3] Azərbaycanın Statistik Göstəriciləri. Bakı: 2000. s 128.

[4] Народное хозяйство Азербайджанской ССР за 60 лет. Юбилейный статистический сборник. Баку: 1980. с.271-272.

[5] Azərbaycanın Statistik Göstəriciləri. Bakı: 2000. s 126.

möhkəmləndirilməsi, çoxlu sayda tədris korpusları, yataqxana komplekslərinin tikilməsi haqda məlumatlar verilmişdir. Göstərilən illərdə 5 yeni ali məktəb yaradılmış, xeyli sayda ixtisaslar, kafedralar, problem laboratoriyaları açılmışdı. Ali məktəblər xeyli inkişaf etmiş, yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasındakı xidmətlərinə görə 6 ali məktəb keçmiş Sovet İttifaqının yüksək ordenlərinə layiq görülmüşdür. Bu illərdə ali təhsildə korrupsiyaya, neqativ hallara qarşı geniş mübarizə başlamış, ali təhsildə keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur. 1970-ci ildə 12 ali məktəb var idisə, 1982-ci ildə 17 ali təhsil ocağı fəaliyyət göstərirdi.[1] Fəsildə ali məktəblərdə tədrisin təşkili, o cümlədən azərbaycan dilində dərs vəsaitinin azlığı, 80-ci illərin sonunda ölkəni əhatə edən böhranın ali təhsilə mənfi cəhətləri açıb göstərilir.

1970-80-ci illərdə respublikanın orta pillə kadrları ilə təminatı, bu qəbildən olan ixtisaslı mütəxəssislərin hazırlanması aparılan təhsil siyasətində diqqət mərkəzində durmuşdur. Azərbaycanda həmin dövrdə 7 müxtəlif profilli yeni texnikum açılmışdı.

Azərbaycan SSR-də ali təhsilin inkişafının önəmli istiqamətindən biri gənclərin ittifaqın ali məktəblərinə oxumağa göndərilməsi idi. 1969-70-ci tədris ilində 47 nəfər təhsil almağa göndərilmişdisə, 1987-ci ildə 625 gənc ittifaq ali məktəblərinə təhsil almağa yollanmışdı[2]. Bu illər ərzində 15 mindən çox azərbaycanlı gənc 50-dən artıq iri şəhərin 170 ali məktəbində təhsil almışdır. Onlar respublikada ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisasa yiyələnmişdilər.

**«Elmin inkişafı və kadr hazırlığı»** adlanan **II fəsil** iki paraqrafdan ibarətdir. Birinci **«Elm sahəsində irəliləyişlər və yeni elm sahələrinin yaranması»** paraqrafında elmin inkişafı - əsasən Elmlər Akademiyasının və onun sahə institutlarının fəaliyyət istiqaməti işıqlandırılır. Respublikada elmin inkişafına dair mühüm işlərin görülməsi onun müxtəlif sahələrinə - texnikaya, ictimai və humanitar və bir çox digər problemlərə dair fundamental tədqiqatlar aparılmasına imkan vermişdir. 70-80-ci illərdə yeni elmi-tədqiqat institutları, konstruktor büroları və təcrübə təsərrüfatları olan altı elmi istehsalat kompleksi formalaşmışdı. 19 72-ci ildə Naxçıvan, 1981-ci ildə Gəncə Elm Mərkəzləri təşkil olundu. 1974-cü ildə Tarix İnstitutunun tərkibindən ayrılaraq müstəqil Arxeologiya və Etnoqrafiya sektoru təşkil edildi, Əlyaz-

---

[1] Салахов.М.Н. Высшее образование в Азербайджане: история, проблемы, перспективы. Баку: 1990. с. 64.

[2] Azərbaycan Respublikası Təhsil Nazirliyi arxivi, Kollegiya materialları 1988-ci il III cild, v.14.

malar fonduna isə 1986-cı ildə Azərbaycan EA Əlyazmalar İnstitutu statusu verildi.

Azərbaycan elmi özünün ənənəvi sahəsi olan neft və neftkimyası ilə yanaşı, elmin digər sahələrində də uğurlara imza atmışdır. Azərbaycan ittifaqın aparıcı elm mərkəzlərindən biri kimi özünü göstərmiş, vacib elmi nailiyyətlər kollektiv və fərdi elmi araşdırmalar nəticəsində əldə olunmuşdur. Azərbaycan alimləri xaricdə xeyli sayda kəşf patentləşdirmiş, ittifaq əhəmiyyətli elmi nəticələr əldə etmişdilər. Elmin fəaliyyət diapazonu xeyli genişlənmişdir.

Tədqiq olunan illərdə elmə ayrılan vəsaitin həcmi artırılmış, onun maddi-texniki bazası xeyli gücləndirilmişdi. 80-ci illərdə Zoologiya, Genetika və Seleksiya İnstitutlarının, Naxçıvan bölməsinin laboratoriya binalarının, Riyaziyyat və Mexanika İnstitutunun laboratoriya korpusunun, Coğrafiya İnstitutunun Piriqulu stosionarının və Tarix İnstitutunun Gəncə arxeoloji ekspedisiyasının bazalarının, Geologiya İnstitutunun "Şamaxı" seysmik stansiyasının binası tikilmişdi. Tədqiqat işlərinin avtomatlaşdırılması və kompüterləşdirilməsinə başlandı və 1989-cu ildə xarici istehsal olan 4,0 mln manat məbləğində kompüter əldə olundu.[1]

Azərbaycan SSR Elmlər Akademiyasının nəzdində altı bölməyə ayrılan 30 elmi müəssisə fəaliyyət göstərirdi. 1970-ci ildən 1990-cı ilə qədər elmi müəssisələrin sayı 142-dən 151-ə, elmi-tədqiqat institutları və onların filialları 73-dən 85-ə, elmi tədqiqat və işləmələri yerinə yetirən işçilərin sayı müvafiq olaraq 17 082-dən, 32315-ə qədər artmışdır.[2]

**«Elmi kadrların hazırlanma yolları»** adlı ikinci paraqrafda elmi kadrların hazırlanması yolları və istiqamətləri göstərilmişdir. Burada Azərbaycan SSR-də 70-80-ci illərdə elmin inkişafında Elmlər Akademiyası ilə yanaşı, ali məktəblərin rolu qeyd edilmişdir. Respublikada iqtisadiyyatın inkişaf etməsi, yeni istehsalat sahələrinin yaranması elmi araşdırma və tədqiqatlarında artmasına, bu da öz növbəsində elmi kadrların çoxalmasına gətirib çıxarmışdır. Ali məktəb, nazirlik və təşkilatların nəzdində də elmi kadrların hazırlanmasına baxmayaraq, elmi kadrların yetişməsində əsas rolu Elmlər Akademiyası oynayırdı. 70-ci illərin ortalarında Azərbaycan SSR EA elmlər doktoru və elmlər namizədi sayına görə İttifaq respublikaları arasında ikinci yerdə dururdu. Elmi kadrların hazırlanmasının əsas yolu aspirantura olduğundan

---

[1] Azərbaycan Milli Elmlər Akademiyası, Elmi İrsin Toplanması Şöbəsi, Отчет, О Деятельности Академии Наук Азербайджанской ССР в 1988 году. Баку, Елм, 1989.с. 174.

[2] Azərbaycanın Statistik Göstəriciləri. Bak: 2000. s.143-145.

ona diqqət xeyli artırıldı. 1987-ci ildə EA-da aspiranturaya qəbul üçün 101 yerə 160 nəfər iddiaçı olmuşdur.[1]

Elmi kadrların hazırlanmasının effektivliyini artırmaq üçün yeni yollar axtarılırdı. Bunun üçün EA-nın nəzdində 1990-cı ildə ilk dəfə olaraq dokturanturaya qəbul aparıldı.[2] Bu illərdə elmi kadr məsələsi öz həllini tapmasına baxmayaraq, bəzi sahələr – politologiya, beynəlxalq əlaqələr üzrə elmi kadr demək olar ki, yox dərəcəsində idi.

**III fəsil «Mədəni-maarif müəssisələrinin fəaliyyəti»** adlanır və iki paraqrafdan ibarətdir. Birinci, **«Klublar, mədəniyyət evləri, kitabxana və muzeylərin əhalinin mədəni səviyyəsinin yüksəlməsində rolu»** adlı paraqrafda respublikada mədəni-maarif işinin inkişaf etdirilməsi üçün mədəni-maarif müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, ixtisaslı kadrlarla daha yaxşı təchiz edilib, onlarda təşkil olunan işin forma və məzmununu zənginləşdirmək, səmərəsini artırmaq, geniş xalq kütlələrin respublikanın mədəni həyatının bütün sahələrində iştirakına cəlb edilməsi istiqamətində müsbət fəaliyyəti işıqlandırılmışdır. Paraqrafda klubların fəaliyyəti, orada olan özfəaliyyət dərnəkləri, kollektivləri, xalq teatrları və respublika əhəmiyyətli müsabiqələr haqda geniş məlumat verilir.

70-80-ci illərdə hər bir rayon mərkəzində mədəniyyət evi tikilmişdir. 1970-ci ildə Azərbaycan SSR-də 2146, 1990-cü ildə 3680 klub müəssisəsi və mədəniyyət evi var idi.[3] Kino sistemi də böyük diqqət mərkəzində olmuş, Bakı və rayonlarda geniş kinoteatr şəbəkəsi yaradılmışdı. Lakin bu müəssisələrdən kütlələrin mədəni səviyyəsinin yüksəldilməsi ilə yanaşı, əhalinin kommunist tərbiyəsinə və burjua təbliğatına qarşı mübarizənin təbliğatı vasitəsi kimi də istifadə olunurdu.

Kitabxana işini yaxşılaşdırmaq üçün təşkilati və metodik işlər görülmüşdü. Rayon mərkəzlərində hər biri 50 min nüsxə kitab fondu olan kitabxanalar tikilmiş, 700-ə qədər kənd kitabxanası müasir binalara köçürülmüşdür. 80-ci illərdə mərkəzləşmə başa çatdırıldı. Mərkəzləşmə nəticəsində Azərbaycan SSR-də tərkibində 3685 kənd kitabxana-filialı olan 70 MKS fəaliyyət göstərirdi.[4]

---

[1] Azərbaycan Milli Elmlər Akademiyası, Elmi İrsin Toplanması Şöbəsi, Отчет, О Деятельности Академии Наук Азербайджанской ССР в 1987 году. Баку, Елм, 1988.с. 178.

[2] Отчет, О Деятельности Академии Наук Азербайджанской ССР в 1990 году. Баку: 1991. с. 141.

[3] Azərbaycanın Statistik Göstəriciləri. Bakı: 2000. s.152.

[4] Народное хозяйство Азербайджанской ССР в 1988 г.Статистический ежегодник. Баку: 1990. с. 132.

Muzeylərin sayının artması ilə yanaşı onların işində keyfiyyətli dəyişikliklərdə baş vermişdir. Onlara müstəqil ekspozisiya yaratmaq hüququ verildi. 1972-ci ildə Bakıda Azərbaycan Xalçası və Tətbiqi Sənəti Dövlət Muzeyi, bütün rayon mərkəzlərində tarix-diyarşünaslıq muzeyləri yaradıldı. S.Vurğunun, Ü.Hacıbəyovun, N.Nərimanovun, C.Cabbarlının, Bülbül və H.Cavidin ev muzeyləri açıldı.

Dissertasiyada kitabxana, muzey, kinoseansları ziyarət edənlərin say dinamikası, işinin forma və metodları tədqiq edilir. Lakin respublikanın bütün rayonları mədəni-maarif müəssisələri şəbəkəsi ilə eyni dərəcədə təmin olunmamışdır. Uzaq dağ rayonları əhalisinin də mənəvi inkişafı üçün eyni cür obyektiv şərait yaradılmaması qeyd olunmalıdır.

Fəslin ikinci, **«Nəşriyyat işi, nəşr edilən ədəbiyyatların və məcmuələrin artması»** paraqrafında göstərilirki, bu illərdə yeni nəşriyyatlar fəaliyyətə başlamış, cəmiyyətdə kitaba olan tələbatın artması ilə əlaqədar onların tirajı çoxalmış, kitab çapı texnologiyası xeyli təkmilləşmişdi. Azərbaycanın tarixi, dili, ədəbiyyatı, incəsənəti, fəlsəfəsi haqqında fundamental əsərlərin çapı xeyli artmışdır. Bədii ədəbiyyatın çapı işini yaxşılaşdırmaq məqsədilə 1977-cü ildə "Yazıçı" nəşriyyatı yaradıldı. 1976-cı ildə Azərbaycan Sovet Ensiklopediyası çapdan çıxdı. Lakin sovet rejiminin ideologiyasının təbliğinə də nəşrlərdə geniş yer verilirdi. Dövlət rəsmilərinin əsərləri, partiya sənədləri, qurultay materialları böyük tirajla nəşr edilirdi. Qəzet və jurnal çapı da yüksələn xəttlə inkişaf edirdi. Bütün rayonlarda, ali məktəblərdə və digər təşkilatlarda yerli qəzetlər çap olunurdu. 80-ci illərin sonunda nəşr olunan 150 adda qəzetlərin ümumi birdəfəlik tirajı 2,8 milyon nüsxəyə bərabər idi.

**IV fəsil «Ədəbiyyat və incəsənətin inkişafı»** adlanır və iki paraqrafdan ibarətdir. Birinci paraqraf - **«Ədəbi-bədii fəaliyyət, Azərbaycan ədəbiyyatının yeni bədii əsərlərlə zənginləşməsi»** adlanır. Paraqrafda mədəniyyətin inkişaf etdirilməsində ədəbiyyatın rolu, təbliği, mədəni əlaqələr və ədəbiyyat xadimlərinin yaradıcılığı əksini tapmışdır. 70-80-ci illərdə Bakıda ittifaq və beynəlxalq əhəmiyyətli tədbirlər keçirilməsi ənənəyə çevrilmişdi. Azərbaycanda Latviya, Rusiya, Ukrayna, Özbəkistan, Leninqrad ədəbiyyatı və incəsənəti günləri təşkil olunmuşdu.[1]

Respublikanın ədəbi həyatının ayrılmaz hissəsi poeziya günləri idi. Ədəbi həyatın inkişafında yubileylərin təşkili və müasir ədəbiyyatın nümayəndələrinə münasibət dövlət qayğısı ilə əhatə

---

[1] Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivi, Fond 340, Siyahı 1, iş 1430, v.74.

olunurdu. Bu yubiley tədbirlərindən miqyasına görə ən irisi İmmamədin Nəsiminin 600 illik yubileyinin qeyd edilməsi idi. Yubiley Bakı ilə yanaşı UNESKO çərçivəsində Moskva, Paris və Suriyada keçirildi. Heydər Əliyevin təşəbbüsü ilə Hüseyn Cavidin 100 illiyinin keçirilməsi, N.Gəncəvinin 840, M.Hadinin 100, S.Ə. Şirvaninin 150, M.Ə.İbrahimovun 70 illik və digər ədiblərin yubileyləri ümumxalq təntənəsinə çevrilmişdir[1].

Dissertasiyada S.Rüstəm, R.Rza, N.Rəfibəyli, M.Dilbazi, N. Xəzri, Qabil, B.Vahabzadə, İ.Səfərli, C.Novruz N. Həsənzadə, F.Qoca, B.Azəroğlu, M.Araz, X.Rzanın yaradıcılığına diqqət yetirilir. Poeziyanın zənginləşməsində gənc şairlər M.Yaqub, S.Rüstəmxanlı, N.Kəsəmənli, M.Aslan, R.Rövşən, B.Vəziroğlunun fəaliyyəti xüsusilə qiymətlidir. S.Rəhimov, Mir Cəlal, İ.Şıxlı, B. Bayramov, Ə.Məmmədxanlı, Əbdülhəsən, M.Süleymanov, İ.Məlikzadə, M.İbrahimbəyov, Y.Səmədoğlu, B.Bayramov, Ç.Hüseynov, F.Kərimzadə, Ə.Cəfərzadə, C.Bərgüşad, V.Babanlı, Anar, Elçin və H.Seyidbəylinin nəzm əsərləri maraqla oxunurdu. M.İbrahimov, İ.Əfəndiyev, İ.Qasımov, N.Xəzri, S.Rüstəm, S.Dağlı, V. Səmədoğlu, İ.Səfərli, A.Məmmədov, M.İbrahimbəyov, Q.İlkin və R.İbrahimbəyovun pyesləri teatrlarda uğurla səhnələşdirilirdi.

70-80-ci illərdə müxtəlif janrları əhatə edən geniş oxucu kütləsi qazanan nadir nümunələr - poema, şer, roman, povest, hekayə, oçerk, publisistika yazılmışdır. Ədiblərin yaradıcılığında vətən tarixi, cənub mövzusu, həyata və insana sevgi hissləri, soykökə qayıdış, represiya və qırmızı terror mövzuları üstünlük təşkil etmişdir. Milli-mənəvi dəyərləri əks etdirən bu sənət əsərləri xalqın milli oyanışında müstəsna rol oynamışdı. Bütövlükdə ədəbiyyat öz pafosu etibarilə quruluşa qarşı çevrilmişdi. Onu da qeyd edək ki, başqa sahələrlə müqayisədə ədəbiyyatda millilik daha güclü idi.

**«İncəsənət və onun fəaliyyət istiqamətləri: musiqi, teatr, kino, təsviri incəsənət və heykəltəraşlıqda yeniliklər»** adlanan ikinci paraqrafda bədii mədəniyyətin adıçəkilən sahələri nəzərdən keçirilir. Azərbaycan musiqisi də öz zəngin ənənələrini saxlayır, xeyli sayda simfonik və kamera musiqisi, komediya, balet, muzikl, mahnı janrlarında əsərlər yaradılmışdı. Bu illərdə R.Mustafayevin "Aydın" operası, A.Məlikovun IV simfoniyası, O.Zülfüqarovun "Naməlum əskərin xatirəsi" poeması, H.Xanməmmədovun tar və simfonik orkestri üçün III konserti, T.Bakıxanovun fleyta və orkestr üçün ikinci konserti, M.Quliyevin "Təntənəli uvertürası", A.Cəfərovanın simfoniyası, F.Əmirovun vokal-xore-

[1] Mehdiyeva N.C.Azərbaycan yaradıcılıq ittifaqlarının kütləvi təbliğat sahəsində fəaliyyəti (1960-1980-ci illər). Bakı: 1990. s.93.

oqrafik poeması, "Gülüstan" simfoniyası, A.Əlizadənin "Kənd suitası", "Bayatılar" xor silsiləsi, İ.Hacıbəyovun "Cəngi"si, C. Quliyevin saz və skripka üçün sonatası, C.Cahangirovun "Hüseyn Cavid 59" kontatası diqqəti cəlb edir. Lakin bütün bunlara baxmayaraq bu illər ərzində yazılmış çoxlu sayda əsərlər ifasız qalmışdı.

70-ci illərin əvvəllərində Azərbaycan Dövlət Televiziya və Radio Komitəsinin Simfonik Orkestri yaradılmışdır. 1979-cu ildə Bəstəkarlar İttifaqının Naxçıvanda, DQMV-də, Gəncədə şöbələri açıldı. 1984-cü ildə Naxçıvan Dövlət Filarmoniyası, 1989-cu ildə Bakıda kamera musiqisi zalı fəaliyyətə başlamışdır.

Respublika teatrlarında qoyulan tamaşalarda mövzu müxtəlifliyi, əhatə genişliyi hökm sürürdü. Səhnələşdirilən tamaşalar öz məna gözəlliyi və fikir aydınlığı ilə tamaşaçıları sevindirmiş onların rəğbətini qazanmışdır. Dissertasiyada teatrların tamaşaçı və repertuar planlarının yerinə yetirilməsi, say dinamikası hesablanır və müqayisələr aparılır. Teatr həyatında baş verən mühüm hadisə 1974-cü ildə Azərbaycan teatrının 100 illik yubileyinin görünməmiş təntənə ilə qeyd olunması idi.[1]

B.Vahabzadənin "Yağışdan sonra", "Yollara iz düşür", "Kimdir haqqlı", N.Xəzrinin "Sən yanmasan", "Əks səda", Anarın "Təhminə və Zaur", "Adamın adamı", R.İbrahimbəyovun "Yaşıl qapı arxasında qadın" pyesləri geniş tamaşaçı marağına səbəb olmuşdur. C.Cahangirovun "Xanəndənin taleyi", Niyazinin "Çitra", A.Əlizadənin "Babək" və s. opera və baletlərə ecazkar səhnə quruluşları verilmişdir. Bu illərdə Lənkəran, Şəki, Qazax və Füzulidə dövlət teatrları yaradıldı. 1970-ci ildə respublikada 12, 1990-cı ildə isə 21 peşəkar teatr var idi.

Azərbaycan kinosunda 70-80-ci illər həm bədii, həm də məzmun cəhətdən tədricən yeniləşmə dövrü kimi diqqəti cəlb edir. Kinonun inkişafında 1976-cı ildə Azərbaycan kinosunun 60-illiyinin qeyd olunması qərarı önəmli rol oynadı.[2] "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi "Yeddi oğul istərəm" filmi uzun illərdən sonra 1-ci kateqoriya almış, 1979-cu ildə çəkilmiş "İstintaq" filmi XIII Ümumittifaq kino festivalının əsas mükafatını əldə etmişdi. 1979-cu ildə "Azərbaycanfilm" kinostudiyasında ilk dəfə iri miqyaslı "Babək" filmi təhvil verildi. Bədii filmlərlə yanaşı xronikal-sənədli, elmi-populyar və animasiya filmlərinin də çəkilişləri xüsusi yer tuturdu. Dissertasiyada respublika daxilində göstərilən filmlərə tamaşaçı sayı arxiv materialları əsasında göstərilir.

---

[1] S. Mümtaz adına A R D Ə İ A, Fond 486, Siyahı 1, iş 214, v.23.
[2] Kazımzadə A.Ə.Heydər Əliyev və kinomatoqraf. Bakı: 2007, s. 18.

Təsviri incəsənətin bütün növləri və janrları intensiv şəkildə inkişaf etmiş, mühüm nailiyyətlər qazanmış və bədii təsir dairəsi xeyli genişlənmişdir. Bu illərdə Rəssamlar İttifaqının Gəncə, Naxçıvan, Xankəndi, Şəki və Şuşada filialları təşkil olundu. Müxtəlif mövzulara həsr olunan bir sıra maraqlı və dolğun tablolar, heykəllər, rəsmlər, qrafika, monumental və dekorativ sənət nümunələri meydana çıxmışdır. İttifaq əhəmiyyətli heç bir sərgi Azərbaycan rəssamlarının iştirakı olmadan keçmirdi. Dissertasiyada T. Salahov, M.Abdullayev, T.Nərimanbəyov, N.Əbdürrəhmanov, M. Rəhmanzadə, L.Kərimov, F.Xəlilov, S.Salamzadə, E.Şıxlinskaya və digər firça ustalarının yaradıcılıq yolu izlənilir.

Monumental heykəltəraşlıqda da ciddi uğurlar əldə edildi. Bakıda və digər şəhər və rayonlarda müxtəlif mövzulu onlarla zəngin bədii motivləri olan qiymətli monumental əsərlər yaradıldı. F.Əbdürrəhmanov M.Hüseynzadənin (1973), Ü.Hacıbəyovun Şuşa şəhərində xatirə-kompleksi (1985), C.Qaryağdı N.Nərimanovun (1972), T.Məmmədov Nəsiminin (1980), Ö.Eldarov Sevastopolda Sapun-dağda azərbaycanlı döyüşçülərin xatirə abidəsinin (1974) müəllifləridir. M.Mirqasımov C.Cabbarlının (1983), E.Şamilov Rostov vilayətində Sambek yüksəkliyində 416-cı Azərbaycan (1980) diviziyası döyüşçülərinin şərəfinə qoyulmuş xatirə kompleksi üzərində xeyli əmək sərf etmişdilər.

Göstərilən illərdə yüksək bədiilik, sənətkarlıq, navatorluq, yaradıcı kadrların sayının artması – Azərbaycan mədəniyyətinin inkişafını müəyyənləşdirən amillərdən idi. Azərbaycan mədəniyyəti bu illərdə keçdiyi şərəfli bəzəndə problemli, təzadlı yollara baxmayaraq inkişaf etdi və dünya mədəniyyətinin ayrılmaz bir hissəsi olmaqla yanaşı orada çox şöhrətli bir yer tutdu. Lakin tədqiq olunan dövrdə hər şey rəvan və asan olmamış müəyyən qüsur və çatışmazlıqlarda olmuşdur. Belə ki, Azərbaycanda mədəniyyət mərkəzdən idarə olunmuş, onun işinə müdaxilələr edilmişdi. Millilik, azərbaycançılıq sıxışdırılmış mədəniyyətimizin nailiyyətlərinə qısqanclıqla yanaşılmışdır.

Dissertasiyanın yekununda tədqiqatın gəldiyi nəticələr sadalanmış, tədqiq edilən dövrdə baş vermiş proseslərin ümumiləşdirilmiş təhlili aparılmış, dövrün mədəni uğurlarının müstəqil Azərbaycanın hazırkı mədəni inkişafında təsiri göstərilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. XX əsrin 70-80-ci illərində Azərbaycan SSR-də ədəbi həyat. Azərbaycan Milli Elmlər Akademiyası aspirantlarının elmi konfransının materialları, iyun 2009-cu il. Bakı: «Elm», 2009, s. 382 – 388.

2. Azərbaycan SSR-də kitabxana quruculuğunun genişləndirilməsi və inkişafı (XX əsrin 70-80-ci illəri). Tarix və onun problemləri. Bakı: 2010, № 1, s. 152-155.
3. Развитие музейного дела в Азербайджанской ССР (80-ые годы XX века). Азербайджан и Азербайджанцы. Bakı: 2010, № 1-2, vol. 105-106, c. 270-275.
4. Azərbaycan SSR-də mədəniyyətin inkişaf etdirilməsində nəşriyyatın rolu (XX əsrin 70-80-ci illəri). Azərbaycan Milli Elmlər Akademiyası aspirantlarının elmi konfransının materialları, may 2010-cu il. Bakı: «Elm», 2010, s. 362 – 367.
5. Наука в Советском Азербайджане в 70-80-ых годах XX века. Вестник Казахского Национального Университета им. Аль-Фараби. Казахстан, 2011, № 1, с. 145-148.
6. Azərbaycan SSR-də orta təhsil siyasəti: nailiyyət və problemlər (XX əsrin 70-80-ci illəri). Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 20-ci il dönümünə həsr olunmuş "Gənc Alimlərin I Elm Festivalı" çərçivəsində keçirilmiş elmi konfransların materialları, 13-15 iyul 2011-ci il. Bakı: 2011, s. 245-249.

**Мамедли Р.У.**

# РАЗВИТИЕ КУЛЬТУРЫ В АЗЕРБАЙДЖАНСКОЙ ССР (70-80-гг. XX века)

## РЕЗЮМЕ

В представленной диссертационной работе в комплексном плане исследуется один из сложных периодов истории культуры Азербайджанской ССР. Работа состоит из введения, четырех глав, восьми параграфов, заключения, списка использованной литературы.

Во введении обосновывается актуальность исследуемой темы, ее хронологические рубежи, анализируется степень изученности, источниковая база, методологическая основа диссертации, цель и задачи, научная новизна и практическая значимость исследования.

В первой главе, состоящей из двух параграфов, в первом параграфе рассматриваются вопросы школьного образования, создания необходимых условий по привлечению детей к обучению, подготовки учительских кадров, строительства новых школ, особенно в сельских местностях, укрепления материально-технической базы школ, осуществления всеобщего десятилетнего обучения. Во втором параграфе исследуются вопросы высшего и среднего - специального образования, создания сети новых вузов и кафедр, связанных с потребностями экономики, обеспечение вузов абитуриентами, рост сети высших и средних учебных заведений и подготовка высококва-лифицированных кадров.

Вторая глава состоящая из двух параграфов, посвящена развитию науки. Отмечается, что развитие науки и подготовка научных кадров в этот период осуществлялись в трех направлениях – в Академии Наук, отраслевых институтах и на кафедрах высших учебных заведений, приведены конкретные данные о численности научных учреждений и научных кадров, создание новых научных учреждений, рост числа аспирантов.

В третий главе, состоящей из двух параграфов, последовательно прослеживается деятельность культурно-просветительных учреждений (klубов, библиотек, музеев), вовлечение широких масс в эти учреждения, рост сети этих учреждений и развитие печати в республике.

Четвертая глава, состоящая из двух параграфов посвящена развитию литературы и искусства. Здесь показана роль литературы, музыки, театра, кино и изобразительного искусства в духовном воспитании Азербайджанского народа.

В заключении подведены итоги проведенного исследования и подчеркнута роль и место исследуемого периода в истории развития культуры Азербайджанской ССР.

**Mammadli R.U.**

## DEVELOPMENT OF THE CULTURE IN AZERBAIJAN SSR (in the 70-80-years of the XX century)


## SUMMARY

In the presented dissertational work for the first time in the Azerbaijan historiography in a comprehensive plan one of the difficult periods of history of culture Azerbaijan SSR is researched. Work consists of the introduction, four chapters, eight paragraphs, the conclusion, the list of the used literature.

In introduction an actuality and an importance of the text are based, studying level of the problems has been educated widely, the purposes and problems of the investigations have been discovered in the separate paragraphs and methodological bases, historiography on the problem and approbation have been showed.

In the first chapter consisting of two paragraphs, questions of school education, creation of necessary conditions on attraction of children to training, especially in countrysides, preparation of the teacher's staff, strengthening of material base of schools, realization of general training are considered. In the second paragraphs consisting questions of higher and secondary education, creation of e network of new high schools and the faculties connected with requirements of a national economy, questions of maintenance of high schools by entrants, growth of a network of higher education institutions and scientifically-teaching personnel are researched.

In the second chapter consisting of two paragraphs, is devoted to development of a science in researched years. In is marked, that development of a science and preparation of the scientific staff during this period were carried out in three directions - in the Academy of sciences, branch institutes and on faculties of higher educational institutions concrete data about number of scientific institutes and the scientific staff are cited.

The third chapter consisting of two paragraphs, activity of cultural and educational establishments (libraries, clubs, museums, a press) is consistently traced. Involving of broad masses in these establishment.

In the fourth chapter consisting of two paragraphs, has been devoted development of the literature and art. Here is shown the role of the literature, music, theatre, cinema and art in spiritual education of Azerbaijan people.

In the conclusion are summed up carried out research and the role and a place of the researched period in history of development of culture Azerbaijan SSR is underlined.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА ИНСТИТУТА ИСТОРИИ имени А.А.БАКИХАНОВА**

***На правах рукописи***

**РОВШАН УЛДУЗ оглу МАМЕДЛИ**

# РАЗВИТИЕ КУЛЬТУРЫ В АЗЕРБАЙДЖАНСКОЙ ССР (70-80-гг. XX века)

**Специальность: 5503.02- Отечественная история**

## А В Т О Р Е Ф Е Р А Т

Диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2013**